MƏNİM İLK KİTABIM

4-5 YAŞ



# İKİ GÜL

altun kitab

84(5Azə)
Y 92





Yolun kənarında otların arasında iki gül bitmişdi. Güllər bütün günü baş-başa verib pıçıldaşır, bir-birini sığallayır, küləyin gücünə birgə sinə gərirdilər. Günəş onların ən yaxın dostu idi. Gün çıxanda sevinir, onun istisinə qızınır, özlərini çox xoşbəxt sayırdılar.

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 86380

fond 2018





Bir gün yoldan keçən bir oğlan özü də bilmədən iri ayaqqabısı ilə güllərdən birini əzdi. Bunu görən rəfiqəsi haray qopardı: «Ay oğlan, sən nə etdin?! Belə gözəl çiçəyi də əzərlər?»

86380





Gül göz yaşları ilə rəfiqəsini suladı. Sonra yarpaqları ilə onu sığallayıb qaldırmağa çalışdı, amma bacarmadı. Rəfiqəsi həddən artıq əzilmiş, gövdəsi əyilmiş, yarpaqları qatlanıb torpağa yapışmışdı.

Budaqda oturub bu mənzərəni seyr edən sərçə başını bulayaraq uçub getdi.



Lakin gül təslim olmadı. Rəfiqəsini xilas etmək üçün səbirlə əlindən gələni etdi. Gecələr yarpaqları ilə onun üstünü örtərək soyuqdan, gündüzlər küləkdən qorudu. Günün istisi əzilmiş gülü qızdırdı, yağış damlaları isə suladı. Torpaq ona qüvvət verdi. Hamı rəfiqəsi üçün göz yaşı tökən gülün dərdinə şərik oldu.





Nəhayət, bir səhər xəstə gül yerdən baş qaldırdı, ləçəklərini geniş açaraq günəşə tərəf boylandı. Günəş ona gülümsədi. Gül gövdəsini zəif-zəif tərpədib günəşə öz minnətdarlığını bildirdi. Günəş dedi: «Ey gözəl gül! Düzdür, mən öz şüalarımla səni isitdim, lakin səni xilas edən mənim istiliyim olmadı, yanındakı rəfiqənin sənə məhəbbəti oldu».



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 86380



*Reyhan Yusifqızı*

# İKİ GÜL

Rəssam: Şəlalə Rüstəmova

MƏNİM İLK KİTABIM
seriyasından olan kitabları
www.mestan.az
saytının "Oxu zalı"nda
dinləyə bilərsiniz.



© Altun Kitab
www.altunkitab.az

86380
000000003967

ISBN 978-9952-24-250-8
9 789952 242508